**Kələşova X.X., Əliyev B.Ə.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2018.57.220-242**

# Dövlət sirri təşkil edən məlumatlar və dövlət sirrini mühafizə edən orqanlar

**Xülasə:** "Dövlət sirri təşkil edən məlumatın qeyri-qanuni yayılması faktı üzrə qərarın qəbul edilməsi Qaydası"nın ümumi müddəalarında qeyd edilir ki, dövlət sirri təşkil edən məlumatın qeyri-qanuni yayılması faktı üzrə qərar belə məlumat barədə sərəncam vermək səlahiyyətinə malik olan və bununla yayılmış məlumat məxfiləşdirilərkən, istinad edilmiş siyahını təsdiq edən, dövlət hakimiyyəti orqanı tərəfindən qəbul edilir.

Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimiyyəti orqanları və onların sərəncamına verilmiş məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı" ilə müəyyənləşdirilir. Dövlət sirri təşkil edən məlumatın qeyri-qanuni yayılması faktı üzrə qərar, bu faktın xidməti təhqiqatına dair materialların qiymətləndirilməsi yolu ilə qəbul edilir.

Dövlət sirri təşkil edən məlumatın qeyri-qanuni yayılması faktı üzrə xidməti təhqiqatın aparılması, nəticəsinə dair materialların hazırlanması və təqdim edilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 mart tarixli 40 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət sirri təşkil edən məlumatın qeyri-qanuni yayılması

♦ **Kələşova Xəyalə Xəqani qızı -** AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Dövlət təhlükəsizliyinin hüquqi təminatı" şöbəsinin böyük elmi işçisi (Azərbaycan). E-mail: xayala_kalashova@yahoo.com

**Əliyev Bəxtiyar Əbdürəhman oğlu -** h.ü.f.d., dosent, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Dövlət təhlükəsizliyinin hüquqi təminatı" şöbəsinin müdiri (Azərbaycan). E-mail: antiterror-baku@mail.ru

üzrə ekspert rəyinin hazırlanması və təsdiq edilməsi Qaydası"na uyğun olaraq həyata keçirilir.

Dövlət sirrinə aid edilən məlumatların Siyahısı (bundan sonra - Siyahı) "Dövlət sirri haqqında"Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tərtib edilmişdir. Siyahı ilə dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə olunan və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlar, habelə həmin məlumatlar barədə sərəncam vermək səlahiyyətlərinə malik olan dövlət hakimiyyəti orqanları müəyyən edilir.

"Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nda bir sıra anlayış və akronimlərdən istifadə edilir:

- "rejimli obyektlər" - fəaliyyətləri üçün əlavə təhlükəsizlik tədbirləri müəyyən edilmiş hərbi və xüsusi obyektlər, hərbi hissələr, müəssisə, idarə və təşkilatlar;

- "hərbi obyektlər" - qoşunların döyüş mövqeləri, idarəetmə məntəqələri, poliqonları, rabitə qovşaqları, radiotexniki sistemləri, bazaları, anbarları və hərbi təyinatlı digər qurğuları;

- "xüsusi obyektlər" - müharibə dövründə dövləti və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini idarəetmə məntəqələri, habelə Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarının fəaliyyətini təmin edən digər obyektlər;

- "müəssisə və təşkilatlar" - mülkiyyət növündən asılı olmayaraq, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun yaradılan hüquqi şəxslər, habelə onların filial və nümayəndəlikləri;

- "qoşunlar" - Azərbaycan Respublikasının Silahlı Qüvvələri və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış digər silahlı birləşmələr;

- “silah” - düşmən canlı qüvvəsini, texnikasını, qurğularım və digər obyektlərini məhv etmək üçün nəzərdə tutulmuş vasitələr, onların tərkib hissələri və dəstləşdirici məmulatları;

- “hərbi texnika” - qoşunların fəaliyyətinin döyüş, texniki və arxa təminatı üçün nəzərdə tutulmuş texniki vasitələr, habelə bu vasitələrə nəzarət etmək və onların sınağı üçün nəzərdə tutulan avadanlıqlar və cihazlar, onların tərkib hissələri və dəstləşdirici məmulatları;

- “dövlət mühafizəsi obyektləri” - dövlət tərəfindən mühafizə edilməli şəxslər;

- “mühafizə olunan obyektlər”- dövlət hakimiyyəti orqanlarının yerləşdiyi binalar, tikililər və qurğular, həmin binalara, tikililərə və qurğulara bitişik olan, dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə qorunmalı olan ərazilər və akvatoriyalar, habelə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin sərəncamında olan binalar, tikililər, qurğular, onlara bitişik olan ərazilər və akvatoriyalar.

**Açar sözlər:** dövlət sirri; hərbi texnika; xüsusi obyektlər; siyahı; əks-kəşfiyyat; dövlət hakimiyyəti orqanları.

Dövlət sirri təşkil edən məlumatın qeyri-qanuni yayılması faktı üzrə qərar bu faktın xidməti təhqiqatına dair materialların qiymətləndirilməsi yolu ilə qəbul edilir. Dövlət sirri təşkil edən məlumatın qeyri-qanuni yayılması faktı üzrə xidməti təhqiqatın aparılması, nəticəsinə dair materialların hazırlanması və təqdim edilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 mart tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət sirri təşkil edən məlumatın qeyri-qanuni yayılması üzrə ekspert rəyinin hazırlanması və təsdiq edilməsi Qaydası”na uyğun hazırlanmışdır [4, s.12].

Məlumatın qeyri-qanuni yayılması faktı üzrə qərar ekspert komissiyası tərəfindən hazırlanır və yayılmış məlumat barədə sərəncam vermək səlahiyyətinə

malik olan dövlət hakimiyyəti orqanının rəhbəri tərəfindən imzalanır. Qərar aşağıdakı məsələləri əhatə edir:

- məlumatın qeyri-qanuni yayılması faktının xidməti təhqiqatına dair materialların belə işlər üzrə istintaqı həyata keçirən orqana – Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə (bundan sonra – istintaq orqanı) göndərilməsini;
- dövlət sirrinin mühafizəsi sisteminin təkmilləşdirilməsi üzrə tapşırıqları;
- təqsirli şəxslər barədə məsuliyyət tədbirlərini;
- məxfiləşdirilməli məlumatların siyahısına dəyişikliklər edilməsini.

Dövlət sirri təşkil edən məlumatın qeyri-qanuni yayılması faktının xidməti təhqiqatına dair materiallar belə məlumat barədə sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimiyyəti orqanı üzrə məxfiləşdirilməli məlumatlar siyahısını hazırlanmış ekspert komissiyası tərəfindən, bu orqanın rəhbərinin tapşırığı əsasında qiymətləndirilir.

Kənar təşkilatın mütəxəssisinin ekspert komissiyasının işinə cəlb edilməsi ekspert komissiyanın təşəbbüsü və həmin təşkilatın rəhbərinin razılığı ilə həyata keçirilir**.** Ekspert komissiyasının işinə cəlb edilmiş mütəxəssis təhqiqatın nəticəsində marağı olmayan və dövlət sirri ilə işləməyə müvafiq formalı buraxılışı olan şəxs olmalıdır. Ekspert komissiyasının iclasının keçirilmə vaxtı və ekspert komissiyasının işinə cəlb edilməli şəxslər komissiyanın sədri tərəfindən müəyyən edilir. Dövlət Təhlükəsizlik Xidmətinin rəhbərliyi tərəfindən müəyyən olunan mütəxəssislər ekspert komissiyasının işində bilavasitə iştirak edə bilərlər [5, s.6].

Ekspert komissiyasının iclası dövlət sirrinin texniki kanallarla sızmasının istisna edildiyi otaqda keçirilməlidir. Ekspert komissiyasının iclasının təşkilində dövlət hakimiyyəti orqanının dövlət sirrinin mühafizəsi üzrə bölməsi iştirak edir və iclas zamanı dövlət sirrinin mühafizəsinə görə məsuliyyət daşıyır.

Məlumatın qeyri-qanuni yayılması faktının xidməti təhqiqatına dair materialın qiymətləndirilməsi bir sıra halları nəzərdə tutur:

- qeyri-qanuni yayılmış məlumatın dövlət sirri təşkil etməsi və məxfilik dərəcəsi haqqında ekspert rəyinin, habelə təhqiqat komissiyası tərəfindən müəyyən edilmiş ziyanın obyektivliyinin qiymətləndirilməsini;

- məlumatın qeyri-qanuni yayılması faktının baş verdiyi təşkilatda dövlət sirrinin mühafizəsi sisteminin effektivliyinin artırılması istiqamətində görülən tədbirlərin yetərliliyinin qiymətləndirilməsini.

Qeyri-qanuni yayılmış məlumatın dövlət sirri təşkil etməsi və məxfilik dərəcəsi haqqında ekspert rəyinin obyektivliyi qiymətləndirilərkən aşağıdakılara diqqət yetirilməlidir:

- məlumat məxfiləşdirilərkən Azərbaycan Respublikasının "Dövlət sirri haqqında" Qanunu ilə müəyyən edilmiş prinsiplərə əməl edilib edilmədiyinə;

- məlumatın daşıyıcısında "Dövlət sirri haqqında" Qanunla müəyyən edilmiş rekvizitlərin qoyulub qoyulmadığına o cümlədən məlumatın məxfiliyinin açılması tarixinin və ya şərtinin, yaxud buna səbəb ola biləcək hadisənin müəyyən edilib edilmədiyinə;

- məlumatın məxfiləşdirilməsinin əsaslığının və əvvəllər verilmiş məxfilik dərəcəsinə uyğunluğunun "Dövlət sirri haqqında" Qanunla müəyyən edilmiş müddətdə yoxlanılıb yoxlanılmadığına.

Məlumatın qeyri-qanuni yayılması nəticəsində vurulmuş ziyan Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 249 nömrəli Fərmanı ilə təsdiq edimiş "Məlumatların dövlət sirrinə aid edilməsi Qaydaları" na uyğun olaraq hazırlanmış normativ-metodik sənədə əsasən müəyyən edilir.

Ekspert komissiyası yayılmış məlumatın dövlət sirri təşkil etməsinə və məxfilik dərəcəsinə dair ekspert rəyi ilə, yaxud təhqiqat komissiyasının müəyyən etdiyi ziyanla razı olmadıqda, məsələyə ekspert komissiyası tərəfindən yenidən baxılır. Bu halda yayılmış məlumatın dövlət sirri təşkil etməsinə və məxfilik dərəcəsinə dair ekspert rəyinin hazırlanmasını, habelə vurulmuş ziyanın müəyyənləşdirilməsini ekspert komissiyası həyata keçirir.

Dövlət sirrinin qeyri-qanuni yayılması faktının xidməti təhqiqatına dair materialların qiymətləndirilməsi ilə bağlı işlərin baxılması və həll edilməsi zamanı meydana çıxan bütün məsələlər ekspert komissiyası üzvlərinin səs çoxluğu ilə həll edilir. Əksəriyyətin qəbul etdiyi qərarla razılaşmayan ekspert komissiyasının üzvü öz rəyini yazılı şəkildə bildirə bilər və rəy işə əlavə olunur [6, s. 2].

“Dövlət sirri haqqında” Qanuna əsasən məlumatın qeyri-qanuni yayılması bütövlükdə Azərbaycan Respublikasının və ya mərkəzi icra hakimiyyəti orqanının mənafeyinə ziyan vurmaqla nəticələndikdə, fakt üzrə materiallara Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyada (bundan sonra - İdarələrarası Komissiya) baxılır. Belə məlumatın qeyri- qanuni yayılması faktı üzrə qərar İdarələrarası Kommisiyanın rəyi nəzərə alınmaqla qəbul edilir.

Qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya (bundan sonra İdarələrarası Komissiya) Azərbaycan Respublikası Prezidentinin “Dövlət sirri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1997-ci il 17 yanvar tarixli 539 nömrəli Fərmanı ilə yaradılmışdır. İdarələrarası Komissiya dövlət sirri haqqında Azərbaycan Respublikası qanunvericiliyinin həyata keçirilməsini təmin edən, dövlət proqramlarının, normativ hüquqi aktlarının və metodik sənədlərinin işlənib hazırlanması və yerinə yetirilməsi naminə dövlət sirrinin mühafizəsi sahəsində dövlət hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirən kollegial orqandır [7, s. 3].

İdarələrarası Komissiyanın əsas vəzifəsi dövlət sirrinin mühafizəsini Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona həvalə olunmuş funksiyalara müvafiq təşkil və təmin etməkdən ibarətdir. İdarələrarası Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını,“Dövlət sirri haqqında Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını,

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur [8, s. 5]. İdarələrarası Komissiya öz vəzifəsini yerinə yetirmək üçün aşağıdakı funksiyaları həyata keçirir:

- dövlət sirri təşkil edən məlumatların qeyri-qanuni yayılması bütövlükdə Azərbaycan Respublikası və ya mərkəzi icra hakimiyyəti orqanı üzrə dövlətin təhlükəsizliyinə ziyan vurulmaqla nəticələndiyi hallarda məlumatların yayılması faktı üzrə materiallara baxır və rəy verir;

- qanunla müəyyən olunmuş dövlət sirri təşkil edən məlumatlar siyahısına və məlumatların dövlət sirrinə aid edilməsi və məxfiləşdirilməsi prinsipinə uyğun olaraq, habelə dövlət hakimiyyəti orqanlarının təklifləri nəzərə alınmaqla, dövlət sirrinə aid edilən məlumatların siyahısını tərtib edir və təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

- “Dövlət sirri haqqında” Azərbaycan Respublikası Qanununun həyata keçirilməsini təmin edən dövlət proqramlarını, normativ hüquqi və metodiki sənədləri işləyib hazırlayır və ya müəyyən edilmiş qaydada təsdiq edilmək üçün müvafiq icra hakimiyyəti orqanlarına təqdim edir;

- Azərbaycan Respublikasında dövlət sirrinin mühafizəsi sisteminin təkmilləşdirilməsi və hüquqi tənzimlənməsi barədə təklifləri Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir;

- fondyaradıcı təşkilat ləğv edildikdə və onun hüquqi varisi olmadıqda, dövlət sirri təşkil edən məlumat daşıyıcılarının məxfiliyinin açılması qaydasına dair qərarı qəbul edir;

- dövlət hakimiyyəti orqanlarının, müəssisə, idarə, təşkilatların və vətəndaşların dövlət sirrinə aid edilmiş məlumatların məxfiliyinin açılması haqqında sorğularına “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada baxır;

- dövlət sirri təşkil edən məlumatların digər dövlətlərə və beynəlxalq təşkilatlara verilməsinin mümkünlüyü haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinə ekspert rəyi verir;

- “Dövlət sirri haqqında”Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş hallarda dövlət sirri təşkil edən məlumat daşıyıcılarını başqa dövlət hakimiyyət orqanı, müəssisə, idarə və ya təşkilatına verilməsi barədə göstəriş verir;

- hərbi və fövqəladə vəziyyət şəraitində vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması qaydasının dəyişdirilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;

- Azərbaycan Respublikası Prezidentinin göstərişinə əsasən dövlət sirri təşkil edən məlumatların birgə mühafizəsi və istifadəsi haqqında Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin layihələrinə baxır, müvafiq təkliflər və ekspert rəyləri hazırlayır və bu məsələlərlə bağlı beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;

- dövlət hakimiyyəti orqanlarında, müəssisə, idarə və təşkilatlarda qüvvədə olan məxfiləşdirilməli məlumat siyahılarının dəyişdirilməsinə dair qərarlara (bu qərarlar dövlət sirrinə aid edilən məlumatlar siyahısına dəyişiklik edilməsi ilə bağlı olduqda) razılıq verir, bu qərarları dayandırır və onlara etiraz edir;

- dövlət sirrini təşkil edən məlumatların məxfilik müddətinin uzadılması məsələsinə dair rəy verir [9, s. 1].

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən “Dövlət sirri haqqında”Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll edir. İdarələrarası Komissiyaya sədr başçılıq edir. İdarələrarası Komissiyanın sədri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin və azad edilir.İdarələrarası Komissiyanın tərkibini Azərbaycan Respublikasının Prezidenti təsdiq edir [10, s. 3]. İdarələrarası Komissiyanın fəaliyyətinin təmin edilməsi üçün İdarələrarası Komissiyanın Katibliyi (bundan sonra - Katiblik) yaradılır. Katibliyin vəzifələrinə daxildir:

- İdarələrarası Komissiyanın qərarlarının icrasına nəzarət edir;

- dövlət sirri haqqında qanunvericiliyin həyata keçirilməsi sahəsində dövlət qurumlarının fəaliyyətini əlaqələndirir;

- Azərbaycan Respublikasının Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin İdarələrarası Komissiyaya verdikləri tapşırıqların icrasını təmin edir;

- dövlət sirrinin mühafizəsi sisteminin təkmilləşdirilməsi məqsədi ilə dövlət sirri haqqında qanunvericiliyin yerinə yetirilməsi sahəsində dövlət qurumlarının fəaliyyətini öyrənir;

- dövlət sirrinin mühafizəsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi məqsədi ilə müvafiq təşkilatlarla əməkdaşlıq edir;

- dövlət sirrinin mühafizəsi ilə bağlı məsələlərin həll edilməsi məqsədi ilə idarələrarası işçi və ekspert qruplarının yaradılmasına, habelə ayrı-ayrı təşkilatların, o cümlədən mütəxəssislərin işə cəlb edilməsinə dair təkliflər hazırlayır və baxılmaq üçün İdarələrarası Komissiyaya təqdim edir;

- idarələrarası Komissiyanın fəaliyyətinin təmin edilməsi ilə bağlı İdarələrarası Komissiyanın ona həvalə etdiyi digər funksiyaları həyata keçirir [11, s. 2].

İdarələrarası Komissiyanın sədrinin vəzifələrinə aşağıdakılar daxildir:

- müəyyən olunmuş qaydada mərkəzi icra hakimiyyəti orqanlarından, yerli özünüidarəetmə orqanlarından, müəssisə, idarə və təşkilatlardan İdarələrarası Komissiyanın fəaliyyəti ilə bağlı zəruri məlumatları, sənədləri və materialları ala bilər;

- idarələrarası Komissiyanın fəaliyyətini təmin edən idarələrarası ekspert qrupları yaradır;

- müqavilə əsasında dövlət və qeyri-dövlət müəssisə, idarə və təşkilatları və ayrı-ayrı mütəxəssisləri ekspert, tədqiqat və analitik işlərin aparılması üçün cəlb edir;

- Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Katibliyin rəhbərini vəzifəyə təyin və vəzifədən azad edir, işçi qrupu rəhbərinin təqdimatı əsasında işçi qrupunun işçilərini qəbul və azad edir.

İdarələrarası Komissiyanın iclasları İdarələrarası Komissiyanın sədri tərəfindən təsdiq olunmuş plan əsasında keçirilir. Zəruri hallarda İdarələrarası Komissiya sədrinin təşəbbüsünə əsasən növbədənkənar iclaslar keçirilə bilər. İdarələrarası Komissiyanın iclaslarında Komissiya üzvlərinin iştirakı vacibdir. Onlar öz səlahiyyətlərini başqa vəzifəli şəxslərə verə bilməzlər.

İdarələrarası Komissiyanın üzvünün iclasda iştirak etməsi mümkün olmadıqda müzakirə edilən məsələlər barədə onun fikri yazılı surətdə təqdim olunur. İdarələrarası Komissiyanın öz səlahiyyətləri daxilində qəbul etdiyi qərarlarının icrası dövlət hakimiyyəti orqanları, müəssisə, idarə və təşkilatlar, vəzifəli şəxslər üçün məcburidir [12, s. 3].

İdarələrarası Komissiyanın üzvləri qərar qəbul edilməsində eyni hüquqlara malikdirlər. İdarələrarası Komissiyanın hər hansı bir üzvü qəbul edilən qərarla razı olmadıqda onun xüsusi rəyi mütləq iclas protokoluna əlavə edilir. İdarələrarası Komissiyanın üzvləri ictimai əsaslar əsasında fəaliyyət göstərirlər. İdarələrarası Komissiyanın və Katibliyinin maddi-texniki təchizatı dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilir.

Məlumatın qeyri-qanuni yayılması faktı üzrə qərar ekspert kommisiyası tərəfindən hazırlanır və yayılmış məlumat barədə sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimmiyəti orqanının rəhbəri tərəfindən imzalanır.

Qərar aşağıdakı məsələləri əhatə edir:

- məlumatın qeyri-qanuni yayılması faktının xidməti təhqiqatına dair materialların belə işlər üzrə istintaqı həyata keçirən orqana- Dövlət Təhlükəsizlik Xidmətinə göndərilməsini;

- dövlət sirrinin mühafizəsi sisteminin təkmilləşdirilməli üzrə tapşırıqları;

- qanunvericilikdə müəyyən edilmiş səlahiyyətləri daxilində təqsirli şəxslər barədə məsuliyyət tədbirlərini;

-məxfiləşdirilməli məlumatların siahısına dəyişikliklər edilməsini.

Belə nəticəyə gəlmək olar ki, dövlət sirri ictimai həyatın ayrılmaz bir parçası kimi dövlətin hüquq sisteminin vacib bir hissəsinə çevrilmişdir. Demokratik dövlətin formalaşması şəraitində sirr sisteminin elmi və hüquqi qiyməti bu siyasi təsirin kəskin alətidir, və bir çox səbəblər üçün vacibdir [13, s. 119-131].

Göründüyü kimi, dövlət sirri, hərbi sirr, xidməti sirr dövlətin və cəmiyyətin təhlükəsizliyinin təmin olunması üçün olduqca vacibdir və qanunla qorunur. Bu səbəbdən bu cür məsələlər yalnız dar kateqoriya şəxslərə məlum olmalı və daim nəzarətdə olmalıdır.

## Biblioqrafiya


1. Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları, Bakı, 2010.
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 162 nömrəli qərarı ilə təsdiq edilmiş "Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması qaydası". [Elektron resurs] - http://www.e-qanun.az/framework/1216
3. Cəlilov Elman. Azərbaycanın dövlət hüququ, Bakı, 2011.
4. Dövlət sirrinin mühafizəsi üzrə normativ hüquqi aktlar. Bakı: Vətən, 2005.
5. "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının 7 sentyabr 2004-cü il Qanunu. [Elektron resurs] - http://www.e-qanun.az/framework/5526
6. http://din.nmr.az/2018/02/13/dovl%C9%99t-sirri-haqqinda-az%C9%99 azerbaycan-respublikasinin-qanunu/
7. http://www.e-imza.az/downloads/qanunlar/E-signature%20 law/ Elektron %20imza%20haqda%20qanun.pdf
8. http://www.e-qanun.az/framework/9943

9. http://huquqiaktlar.gov.az/StatementDetails.aspx?statementId=33616

10. http://mia.gov.az/index.php?/az/content/201/

11. https://mod.gov.az/az/news/dovlet-sirrinin-muhafizesi-uzre-vacib-melumatlar-11970.html

12. http://www.mfa.gov.az/files/file/27.pdf

13. Vilic V. International and Serbian legal framework of the right to privacy in cyberspace. DOI: 10.12709/mest.06.06.01.13/ MEST Journal, vol. 6. No. 1 January 2018, pp. 119-131